Vaqif YUSİFLİ



# Bölgələrdə ədəbi həyat: Lənkəran

SÖZƏ QÜVVƏT: 1850-ci ildə şuşalı maarifpərvər ziyalı Sadıq bəy Mehmandarov (o, Lənkəran qəzasına məhkəmə katibi təyin olunmuşdu) Lənkərana gedərkən Qaradonlu gömrükxanasında tərcüməçi işləyən Mirzə İsmayıl Qasirlə görüşür (Qasir əslən ağdaşlı idi, şair və müəlllimdi). Sadıq bəy onu Lənkərana dəvət edir, öz mülkündə onun üçün «Üsuli-cədid» məktəbi açır və Qasir məktəbdarlıqla məşğul olur. Amma Qasir tezliklə Lənkəranda yazıb-yaradan şairləri öz ətrafına toplayır və bir ədəbi məclis təşkil edir, «Fövcül-Füsəha» («Natiqlər yığıncağı») adlandırır bu məclisi. XIX əsr Azərbaycan ədəbi prosesini tənzim edən bir çox ədəbi məclislər təşkil edilmişdi («Gəncədə «Divani-Hikmət», Qubada «Gülüstan», Naxçıvanda «Əncümənüş-şüəra», Şamaxıda «Beytüs-Səfa», Qarabağda «Məclisi-Üns», «Məclisi-Fəramuşan», Bakıda «Məcməüş-Şüəra»). «Fövcül-Füsəha» Qasirin rəhbərliyi ilə onun ölümünə qədər (1900) fəaliyyətini davam etdirir və digər ədəbi məclislərlə sıx əlaqələr yaranır. Ustad Seyid Əzim Şirvaninin ən çox sevdiyi şairlərdən biri də Qasir idi. «Fövcül-Füsəha»da Qasirlə yanaşı, Molla Fəttah Səhban, Ələkbər Aciz, Mirzə Ələkbər Mühəqqir, Molla Məhəmməd Mücrim, Mirzə İsa Xəyali, Məhəmmədhəsən Nəccar, Hüseynqulu Şuri, Mirzə Ələkbər Səburi kimi istedadlı şairlər də iştirak edirdilər. Beləliklə, Azərbaycanın Cənub bölgəsinin mədəni mərkəzi sayılan Lənkəranda ədəbi həyat qaynar dövrünü yaşayır. Təbii ki, bu başlanğıc təsirsiz qalmır.

Əsr yarımdan sonra «Fövcül-Füsəha» Lənkəranın qocaman ziyalısı, sağlığında şəhərdə heykəli qoyulan Mirhaşım Talışlının səyi və təşəbbüsü ilə bərpa olunur.

LƏNKƏRANDA ƏDƏBİ HƏYATIN SPESİFİK XÜSUSİYYƏTLƏRİ. XX əsrdə Cənub bölgəsində ədəbi həyat öz inkişafının yeni və daha sürəkli mərhələsinə daxil olur. Xüsusilə, əllinci illərdən başlayaraq Cənub bölgəsində o vaxta kimi görünməmiş istedadlı yazarlar meydana çıxır. ( Şəkər Aslan, Mirhaşım Talışlı,Əlisa Nicat, Vaqif Hüseynov, Hüseynbala Mirələmov,Yaşar Rzayev, Abbasağa, Məmməd Kazım, İltifat Saleh, Zeydulla Ağayev) Cənub bölgəsi Azərbaycan ədəbi həyatının irəlici qollarından birinə çevrilir. Bunu nəzərə alıb Lənkəranda Azərbaycan Yazıçılar Birliyinin zona şöbəsi təşkil edildi (1977). Şöbənin ilk sədri o zaman «Dağlar oğlu» romanı ilə ədəbi ictimaiyyətin diqqətini cəlb edən Məmmədhüseyn Əliyev (1925-1994) oldu. Cənub bölgəsində yaşayan ən məşhur şair isə Şəkər Aslan idi (1935-1995). O, keçən əsrin əllinci illərində yaradıcılığa başlamışdı, Xalq şairi Nəbi Xəzri onun şeirlərinə uğurlu yol yazmışdı. Şəkər Aslan uzun müddət Lənkəranda çıxan «Leninçi» qəzetinin redaktoru oldu, ömrünün son illərində isə Yazıçılar Birliyi Lənkəran zonasının rəhbəri idi. Şəkərdən sonra bu vəzifəyə İltifat Saleh (1935-2019) seçildi.

Mən Cənub bölgəsində yazıb-yaradan şairlər sırasında çox sevdiyim bir şairin adını çəkməsəm, günah olar. Şəxsən mənim ədəbi həyatımda böyük rol oynayan Vaqif Hüseynovu (1936-1985) unuda bilmirəm. O, Masallıda-rayon «Çağırış» qəzetində redaktor idi və bu qəzet respublikada çap olunan rayon qəzetləri arasında birincilik qazanmışdı. Mən də tələbəlik illərimdə bu qəzetin səhifələrində tez-tez çıxış edirdim.

Bu yazıda mən əsasən Lənkəranda ədəbi həyatın son iyirmi ildəki gedişatından söz açacağam (Cənub bölgəsinin digər rayonlarında yaşayıb-yaradan və Azərbaycan ədəbi həyatında da tanınan yazarlardan söz açmaq xeyli vaxt aparar). Burada-Lənkəranda ədəbi həyatın spesifik, özünəməxsus xüsusiyyətləri barədə müəyyən təsəvvür yaratmalıyam. Əlbəttə, Lənkəranda yaranan əsərləri qətiyyən Azərbaycan ədəbi prosesindən təcrid etmək olmaz, necə deyərlər, hər hansı hissə tamın, bütövün daxilindədir. Lakin heç də qəribə deyil ki, hər bir bölgədə yaranan ədəbiyyatın özünəməxsus spesifik xüsusiyyətləri var. Onları aşağıdakı qaydada sıralamaq istəyirəm.

1. Lənkəranı «Cənub mirvarisi» adlandıranlar qətiyyən səhv eləməmişlər. Nəinki Azərbaycanın, dünyanın gözəllik tablolarından, cənnət məkanlarından biri olan Lənkəran bir tərəfdən Talış dağları, bir tərəfdən isə Xəzər dənizi ilə qovuşur, Azərbaycanın sitrus aləmi, dəmirağac meşələri kimi nadir sərvətləri Lənkəranda qərar tutub. Şəkər Aslan bir şeirində yazır ki:

Burdadır ən gözəli  
Bağçanın da, bağın da.  
Lənkəran bir gözəldir  
Bəzənib Xəzər adlı  
Güzgünün qabağında.

Qızların yanağında  
Qızılgülün rəngidir.  
Lənkəran elə bil ki,  
Xəzərin yaxasında  
Qızılgül çələngidi.

(Yeri gəlmişkən qeyd edək ki, Şəkər Aslanın təşəbbüsü ilə nəşr olunan «Söz» jurnalı indi də fəaliyyətini davam etdirir. İstedadlı jurnalist Sevda Əlibəylinin redaktorluğu ilə...)

Lənkəranın özünəməxsus flora və faunasını - onun təbiət gözəlliklərini, burada yaşayan insanların adət-ənənə, məişət xüsusiyyətlərini heç bir şair lənkəranlı şair qədər təsvir edə biləmməz.

2.Lənkəranda digər bölgələrlə müqayisədə iki ədəbi janr -qəzəl və sonet daha çox yazılır, bu mənada Lənkəran şairləri Şərqlə Qərbin ədəbiyyatlarını bir araya gətirirlər. Qəzələ meyl etmək «Fövcül-Füsəha» ənənəsindən və ümumən klassik poeziyamızdan-Füzuli şeirindən gəlir. Lənkəranda yaşayan bir neçə şair istisna olmaqla elə bir şair tapa bilməzsiniz ki, qəzələ və əruza müraciət etməsin. Bu əruzçuların ön sırasında mərhum şair Mirhaşım Talışlı durirdu. Mirsalam Babayev, Ağamir Cavad, Ziyafət Yəhya, Tofiq Həsənli, Mahirə Nərimanqızı (Lənkəranda ilk «Divan» bağlayan şairə), Xanəhməd Nahid, Xaqani Muğamatoğlu, Xilqət Talıbov (onun da «Divan»ı var), Əhməd Haqsevər, Röyal Həşri, Vüqar Fərzullayev, Ağababa Nakam kimi lənkəranlı şairlər qəzəl yazmaqdan yorulmurlar. Əlbəttə, adlarını çəkdiyim bu şairlərin bir çoxunun qəzəllərini və əruzda yazdıqları şeirləri yalnız həvəskar səviyyəsi hesab etmək olar. Amma bu janrda daha çox diqqəti cəlb edən, təcrübə qazanan bir neçə şairin- Ağamir Cavadın, Xanəhməd Nahidin, Xatirə Xatunun, Xilqətin adlarını xüsusi qeyd etmək istəyirəm. Lənkəranda yaşayan şairlərin qəzələ meyli haçansa yeni bir ustad qəzəlxanın yetişəcəyinə də inam yaradır. Ən cavan şairlərdən Xaqani Muğamatoğlunun bir qəzəlini nümunə gətirək:

Dedim: ey gül, hər an eşqində çəkən nalə mənəm,  
Dedi: ah çəkmə, səbəb səndəki bu halə mənəm.

Dedim: ah çəkməyimə səbəb qarə xalındır,  
Dedi: həsrət səni qoymuş o qara xalə, mənəm.

Dedim: həsrət dediyin danələnib çeşmimdə,  
Dedi: çeşmində sənin danələnən jalə mənəm.

Dedim: al oldu ürək surətinə baxmaqdan,  
Dedi: fəxr eylə ki, salmış onu zəvvalə, mənəm.

Dedim: atəşli bu eşq ovladı, Xaqani, məni,  
Dedi: döz, layiq olan çünki bu iqbalə mənəm.

«Azərbaycan soneti» adlı bir məqaləmdə qeyd etmişdim ki, Lənkəranda sonet «fırtınası» Şəkər Aslanın sonetləri ilə başladı. Şəkər Aslan müasir poeziyamızda ilk sonetlər çələnginin də müəllifidir. Sonetlər çələngi isə şairdən istedad tələb edir, gərək burada sonetin həm məzmununu, həm də forma-struktur xüsusiyyətlərini qoruyub saxlayasan. Vaqif Hüseynov, Mirhaşım Talışlı, İltifat Saleh, Balayar Sadiq, Elşad Səfərli, Ağamir Cavad, Qorxmaz Kadusi, Tərlan Əbilov, Əhməd Haqsevər, Hacı İltifat Cəfərli, Əli Nasir necə deyərlər, Şəkər Aslanın Lənkəranda açdığı «sonet məktəbinin» müdavimləri oldular. Biz bu xüsusda «Azərbaycan» jurnalının 2021-ci il sentyabr sayında «Azərbaycan soneti» adlı məqaləmizdə geniş söz açdığımızdan təfərrüata varmırıq. Lakin bir məqamı xüsusilə nəzərə çarpdırmaq istəyirik. Sonet müəlliflərindən biri - şair-tədqiqatçı Elşad Səfərli «Sonet janrı və Azərbaycan soneti» adlı sanballı bir monoqrafiya çap etdirdi (elmi redaktoru Hüseyn Həşimli). O, həmçinin sonetin bir sıra işlənməmiş yeni növlərini də Azərbaycan poeziyasına gətirdi. Sonet haqqında bu söhbəti də Elşad Səfərlinin bir sonetindən nümunə gətirməklə bitirirək:

Sizi sonet yazmağa çağırıram, a dostlar,  
Bir az qoşma, gəraylı yazmağa aram verin.  
İndi ki, təbinizdə yaratmaq qüdrəti var,  
Sonet üfüqlərini genişləndirin şeirin.

Nə qədər eyni ruhda əsərlər yazmaq olar,  
Bir az da addımlayaq böyük sənətə doğru.  
Bəlkə də, aranızda yatıbdır Petrarkalar,  
Oyanın Petrarkalar, üzü sonetə doğru.

Qataq öz şerimizə intibah incisini,  
Yeni əsri döndərək gəlin, sonet əsrinə.  
Biz fəth etsək sonetin Şekspir zirvəsini,  
Bu, bir bəzək olacaq Azərbaycan şeirinə.

Zaman yetişdirdikcə sonet yazan kəsləri,  
Gec-tez üzə çıxacaq Dantenin varisləri.

DÖRDÜNCÜ «HAKİMİYYƏTİN» ARAYIŞI: Lənkəranda ədəbi həyatın son illərdəki vəziyyəti barədə bölmənin rəhbəri yazıçı Qafar Cəfərliyə müraciət etdik. O, ixtisasına görə hüquqşünasdır, lakin gəncliyindən bədii yaradıcılıqla məşğul olub, indiyə kimi neçə hekayələr, povestlər kitabı çap olunub, əsasən detektiv janrda qələmini sınayır. Qafar müəllim İltifat Salehin vəfatından bir il sonra Azərbaycan Yazıçılar Birliyi Lənkəran bölməsinin rəhbəri təyin edildi. Məmmədhüseyn Əliyev, Şəkər Aslan və İltifat Salehdən sonra filialın dördüncü sədri kimi fəaliyyətə başladı. Sədr təyin olunduğu bu ilyarım ərzində elə bir həftə olmayıb ki, həm Lənkəranda, həm də filialın əhatə etdiyi Masallı, Yardımlı, Astara, Cəlilabad, Lerik rayonlarında ədəbi tədbir keçirilməsin. Qafar Cəfərli bizə filialın fəaliyyəti ilə bağlı bir neçə səhifəlik arayış təqdim etdi. Bu rəsmi arayışı oxuduq və bizə məlum oldu ki, AYB Lənkəran Bölməsinin bu «dördüncü hakimiyyət» dövrü işgüzar və qaynar fəaliyyəti ilə seçilir. Ən əvvəl filialın ədəbi orqanı olan və tam səkkiz il ərzində nəşrini dayandırmış «Şəfəq» jurnalı bərpa olundu, artıq onun dörd sayı oxucuların ixtiyarındadır. Yazıçıların yubiley tədbirləri isə intensiv şəkil alır. Biz o tədbirlərin bir neçəsində şəxsən iştirak etmişik- dahi Nizaminin 880 illiyi, İsmayıl Şıxlının 100 illiyi, Mikayıl Müşfiqin, Qabilin, Şəkər Aslanın, Camal Yusifzadənin,Vaqif Hüseynovun, Sabir Rüstəmxanlının, Səyavuş Süleymanlının anım və doğum günləri maraqlı bədii proqramlarla yadda qalıb. Filialda şair və yazıçılarla görüşlərin keçirilməsinə xüsusi diqqət yetirilir. Təkcə filialın binasında deyil, Lənkəran rayonunun orta və orta-ixtisas təhsili müəssisələrində. şəhərin sərhəd xidməti hissəsində, ayrı-ayrı kənd və qəsəbələrdə yazıçılarla belə görüşlərin çox faydası olub. Filialda təkcə Cənub bölgəsi yazarları ilə deyil, Azərbaycanın tanınmış şairləri, nasirləri ilə də görüşlər keçirilir, lap son iki ayda şairlərdən Elçin İsgəndərzadə və Fəxrəddin Teyyub, yazıçı Əyyub Qiyasla Lənkəran yazarları və oxucularının görüşləri «Oxucu-yazıçı» debatına ən parlaq misal ola bilər. Təbii ki, Lənkəran filialında müstəqilliyimizin 30 illiyi, İkinci Qarabağ müharibəsi və şəhidlərimizlə bağlı tədbirlərin keçirilməsini də unutmaq olmaz-İkinci Qarabağ müharibəsində şəhid olan lənkəranlıların əziz xatirəsinə həsr olunan «Payızın 44 anı» (Qafar Cəfərli və Xatirə Xatun) kitabı, «Ədəbiyyatımızda vətənpərvərlik. Vətən mənə oğul desə», «Şəhidlər ölməz» mövzularında keçirilən tədbirlər də xüsusi önəm daşıyıb.

*(Davamı var)*